**Həmkarlar hesabat verir**

*Vergilər Nazirliyinin Mərkəzi Aparatı üzrə ilk həmkarlar təşkilatının hesabat-seçki yığıncağı keçirilmişdir*

Vergilər Nazirliyinin Mərkəzi Aparatının ilk həmkarlar təşkilatının sədri Şöyüb Məmmədovun hesabat məruzəsi dinlənilmişdir. O, təşkilatın hesabat dövrü ərzində öz işini günün tələbləri səviyyəsində qurduğunu bildirmişdir: «Təşkilat öz fəaliyyətini tərtib olunmuş iş planına əsasən tənzimləmiş və hesabat dövrü ərzində Vergilər Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi ilə birlikdə 10-a yaxın iclas keçirmişdir. Bu iclaslarda sosial yönümlü məsələlər, maddi yardım məsələləri, yollayışlarla bağlı, mədəni-kütləvi tədbirlərin keçirilməsi və sair məsələlər müzakirə olunmuş, müsbət qərarlar qəbul edilmişdir. Hesabat dövründə Mərkəzi Aparatın işçilərinə sanatoriya və istirahət evlərinə 74 yollayış verilmiş, işçilərdən 99 nəfərinə maddi yardım edilmişdir. Vətəndaşların ərizə, şikayət və müraciətlərinə vaxtında baxılmış və lazımi cavablar verilmişdir».

İşçilərin hüquqlarının daha yaxşı qorunmasının təmin edilməsi üçün Vergilər Nazirliyi ilə Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı arasında 2010-2013-cü illər üzrə sahə Kollektiv Sazişi imzalanmışdır.

Təşkilat tərəfindən işçilərə müavinətlərin vaxtında və düzgün verilməsinə hər zaman nəzarət edilmiş, iş və əmək şəraitinin yaxşılaşdırılması üçün nazirliyin rəhbərliyinin böyük köməyi sayəsində bir sıra işlər görülmüşdür.

Vergilər Nazirliyinin Mərkəzi Aparatının əməkdaşlarının sağlamlığı nazirliyin rəhbərliyinin və həmkarlar təşkilatının daim diqqət mərkəzində olmuşdur. 2008-2011-ci illər ərzində Mərkəzi Aparatın bütün işçiləri tibbi sığorta edilmişlər.

Ş.Məmmədov diqqəti nazirlik tərəfindən məcburi köçkün və qaçqınlara göstərilən yardım kampaniyalarına yönəldərək qeyd etmişdir ki, bayramlar ərəfəsində Ağcabədi və İmişli rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri ilə müntəzəm görüşlər keçirilmiş, onların ehtiyacları, arzu və təklifləri dinlənilmiş, zəruri yardımlar edilmişdir.

Tədbirdə çıxış edən Vergilər Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Məmməd Məmmədov Vergilər Nazirliyinin yarandığı gündən ötən müddət ərzində rəhbərlik tərəfindən həyata keçirilən məqsədyönlü təşkilati tədbirlər nəticəsində respublikanın vergi sistemində nailiyyətlər əldə edildiyini bildirmişdir. O, son illər Vergilər Nazirliyi tərəfindən əmək intizamının möhkəmləndirilməsi, kadr siyasətinin gücləndirilməsi, işçilərin yüksək əmək şəraiti ilə təmin edilməsi istiqamətində ardıcıl işlərin həyata keçirildiyini vurğulamışdır.

Hesabat-seçki yığıncağında Mərkəzi Aparatın həmkarlar təşkilatının dörd illik fəaliyyəti qənaətbəxş qiymətləndirilmiş və irəli sürülən təkliflər dinlənilmişdir.

Sonda təşkilati məsələlərə baxılmış, həmkarlar təşkilatının yeni heyəti, Vergilər Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin 2012-ci ilin iyun ayında keçiriləcək 5-ci konfransına nümayəndələr seçilmiş, Vergilər Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin tərkibinə (plenum üzvlüyünə) namizədlər irəli sürülmüşdür.

**Arzu İBRAHİMOVA**